**G.S.HƏSƏNOVA**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
*e-mail: gular.hasanova@mail.ru*
**:https://orcid.org/0009-0008-8386-3878**

**Azərbaycan Dillər Universiteti**
(Bakı şəh., R.Behbudov küç., 134)

**10.62021/0026-0028.2025.3.444**

# AŞAĞI KURSLARDA QRAMMATİK BACARIQLARIN FORMALAŞDIRILMASI YOLLARI

***Xülasə.*** *Qrammatikanın tədrisi dil öyrənmə prosesində mühüm rol oynayır, çünki dilin strukturunu, qaydalarını və istifadəsini anlamaq tələbələrin dil bacarıqlarının inkişafında vacibdir. Qrammatikanın öyrədilməsi, təkcə dilin strukturunu öyrətməkdən ibarət deyil, həm də tələbələrin bu strukturları düzgün və effektli şəkildə istifadə etmələrini təmin etməyi hədəfləyir.*
*Məqalənin məqsədi, aşağı kurslarda təhsil alan tələbələrdə qrammatik bacarıqların effektiv şəkildə inkişaf etdirilməsi üçün müxtəlif metod və yanaşmaları araşdırmaqdır. Bu məqsədlə, dilin struktur qaydalarının mənimsənilməsi, qrammatik təlimin düzgün və uyğun üsullarla həyata keçirilməsi, həmçinin tələbələrin qrammatik səhvlərini azaltmaq və qrammatik bacarıqlarını artırmaq üçün tətbiq edilən tədris strategiyalarını təqdim etməkdir.*

***Açar sözlər:*** *qrammatik bacarıqlar, reseptiv və produktiv bacarıqlar, qrammatik prinsiplər, dil və nitq çalışmaları, qrammatik kriteriyalar*

Aşağı kurslarda qrammatikanın tədrisi zamanı hansı dərs vəsaitinin istifadəsi önəmli məsələlərdəndir. Tələbələrdə qrammatikanın həm reseptiv, həm də produktiv vərdişlərinin yaradılması müəllimin tətbiq etdiyi metodla yanaşı istifadə edilən dərsliklərin strukturundan da asılıdır. Bu dərsliklər həmçinin müəllimin tətbiq etmək istədiyi metodla uzlaşma yaratmalı və kommunikativ səriştə yaratmaq dərsliyin əsas məqsədi olmalıdır.

Qrammatikanın tədrisində istifadə edilən dərsliklər və tədris materialları, tələbələrin bilik və bacarıqlarına uyğun olaraq diqqətlə seçilməlidir. Dərsliklərin və tədris materiallarının hazırlanmasında əsas məqsəd, tələbələrin öyrəndikləri qrammatik strukturları həm şifahi, həm də yazılı dildə asanlıqla tətbiq etmələrini təmin etməkdir. Bu məqsədə çatmaq üçün materialların tələbələr üçün mümkün qədər aydın və başa düşülən olması mühüm əhəmiyyət kəsb edir. Tədris prosesində materialın yadda saxlanılmasına xüsusi diqqət yetirilməlidir, çünki yalnız nəzəri biliklərin əldə edilməsi deyil, həmin biliklərin praktikada istifadə olunması da vacibdir.

İlkin mərhələdə, tələbələrin materialı anlama və yadda saxlaması üçün çoxlu sayda misallar verilməli və bu misallar üzərində təkrarlanan məşqlər aparılmalıdır. Bu, tələbələrin öyrəndikləri qaydaları daha yaxşı mənimsəmələrinə və həmin qaydaları dilin müxtəlif kommunikativ kontekstlərində istifadə etmə vərdişlərini inkişaf etdirmələrinə kömək edəcəkdir. Materialların bu şəkildə təqdim olunması həm də tələbələrin motivasiyasını artıracaq və onların dərsə olan maraqlarını gücləndirəcəkdir.

Dərsliklərin hazırlanmasında nəzərə alınmalı olan mühüm məsələlərdən biri materialın *fəal* və *passiv mərhələlər* olaraq iki əsas kateqoriyaya bölünməsidir. Fəal *mərhələ* tələbənin qrammatik strukturları aktiv şəkildə, öz ifadələrində istifadə etməsini nəzərdə tutarkən, *passiv mərhələ* həmin strukturların tələbə tərəfindən anlaşıldığı və qəbul edildiyi, lakin hələ də aktiv şəkildə istifadə olunmadığı mərhələyə işarə edir. Bu bölünmə dərs vəsaitlərinin tərtibində

müəllimlərə və dərslik müəlliflərinə istiqamət verir ki, onlar materialları hazırlayarkən bu iki aspekti nəzərə almalıdırlar [2, s.65].

Dərs vəsaitlərinin hazırlanmasında izlənilməsi vacib olan bir neçə əsas *prinsip* mövcuddur. Bunlardan biri *şifahi nitqdə yayılma prinsipidir*. Qrammatikanın tədrisi, təkcə yazılı ifadə bacarığını inkişaf etdirməklə məhdudlaşmamalıdır. Əksinə, tələbələrə öyrədilən qrammatik qaydalar, şifahi nitqdə də düzgün şəkildə istifadə edilə bilməlidir. Bu prinsipin tətbiqi, tələbələrin kommunikativ bacarıqlarının inkişafı ilə əlaqəlidir, çünki qrammatik biliklərin şifahi danışıqda tətbiqi, dilin gündəlik həyatda effektiv istifadə edilməsi üçün vacibdir. Bundan əlavə, dərs vəsaitlərində istifadə edilən praktik tətbiqlərin əhəmiyyəti xüsusi qeyd olunmalıdır. Bu prinsip tələbələrin həm şifahi, həm də yazılı dil üzərində məşq etmələrinə şərait yaratmağa xidmət edir. Praktik tətbiqlər, yalnız nəzəri məlumatların öyrədilməsi ilə kifayətlənməyib, tələbələrin bu bilikləri tətbiq etmələrinə imkan verir. Bu zaman şifahi və yazılı tətbiqlər arasında balans yaradılmalı və tələbələrə hər iki sahədə də praktiki təcrübə verilməlidir [2, s.68].

Bundan başqa, *materialların tətbiqinin asan olması prinsipi* də vacibdir. Tədris materialları təkcə nəzəri baxımdan zəngin olmamalı, eyni zamanda praktiki tətbiqi asan və tələbələr üçün başa düşülən olmalıdır. Bu prinsiplə əlaqədar olaraq, materialların real həyatda istifadə olunan misallarla zənginləşdirilməsi və tələbələrin həyatlarına uyğunlaşdırılması onların öyrənmə prosesinə faydalı təsir göstərəcəkdir.

Digər bir prinsip isə *qrammatikanın sinonimliyi* məsələsidir. Bu proses nəzərə alınmasa bir çox çətinliklər yarana bilər. Yəni əgər tələbələr *must* və *have to* modal feillərinin oxşar və ya fərqli cəhətlərini müəyyənləşdirə bilməzsələr, şifahi nitqin fəal işlək fondunda biz bu qrammatik strukturu görə bilməyəciyik [2, s.70].

Bunlarla yanaşı təqdim olunan qrammatik material və ona uyğun qurulan tapşırıqlar sistemi kommunikativ nitq bacarıqlarının yaranmasına xidmət etməlidir. Cümlə yaradıcılığının tərkib hissələri olan nitq nümunələri, cümlə modelləri və yardımçı vasitələr tələbələrə morfoloji və sintaktik baxımdan düzgün cümlələr qurmağa imkan verir.

Qrammatik materialla iş aparılan zaman bir sıra xüsusiyyətləri nəzərə almaq lazımdır:

- materialın strukturu;
- həmin materialın daşıdığı məna;
- öncədən mənimsənilmiş materialla əlaqələndirmə;
- materialın işləkliyi;
- materialın situativliyi.

Nəticə etibarilə mənimsənməli olan modellərin, qrammatik strukturların, qaydaların yazılı və şifahi nitqdə adekvat şəkildə istifadəsi tələbələrin qarşısında məqsəd kimi qoyulmalıdır. Hər bir halda tədris edilən materiallar tələbələr tərəfindən elə mənimsənməlidir ki, həm şifahi, həm yazılı, həm eşidib-anlama, həm də oxuma zamanı sinxron şəkildə istifadə oluna bilsin. Bu, təlimin əsas məqsədi olmalı və dərsliklərdə ön plana çəkilməlidir [6, s.88].

Orta və ali məktəblərdə xarici dilin tədrisində fonetika, leksika, qrammatika kimi nitq aspektlərinin və nitq fəaliyyətinin müxtəlif növlərinin nəzərə alınması mütləqdir. Bu, dil öyrənmə prosesinin hərtərəfli və səmərəli şəkildə qurulması üçün əsas amillərdən biridir. Xarici dilin öyrənilməsində bu aspektlərin sistemli şəkildə tətbiqi tələbənin dil bacarıqlarının inkişafını sürətləndirəcək və onlara dilin real həyatda istifadə olunması üçün lazımi bacarıqları qazandıracaqdır.

Ədəbiyyatlarda bu məsələyə geniş yer verilmiş və dil tədrisi sahəsində müxtəlif növ çalışmaların (praktik məşqlərin) tərtibi ilə bağlı müxtəlif nəzəri yanaşmalar təqdim edilmişdir. Bu yanaşmalar əsasında çalışmalara olan tələblər və onların məqsədli şəkildə tətbiqi ortaya çıxır. Belə çalışmaların tərtibində əsas prinsip dil və nitq arasındakı fərqi nəzərə alaraq düzgün struktural yanaşmanın tətbiq olunmasıdır. Dil və nitq arasındakı fərq, dilin quruluşu və onun nitqdə necə istifadə edilməsi arasındakı əlaqəni müəyyən edir. Dil, qrammatika, leksika

və fonetika kimi dilin struktural tərəflərini, nitq isə bu strukturların kommunikativ məqsədlər üçün necə istifadə olunduğunu əhatə edir.

*Reseptiv bacarıqlar* (dinləmə və oxuma) tələbələrin verilən informasiyanı anlama və qəbul etmə qabiliyyətini inkişaf etdirərkən, *produktif bacarıqlar* (yazma və danışma) bu məlumatların tətbiqi və ifadə edilməsi ilə bağlıdır. Dil öyrənmə prosesində hər iki bacarığın paralel inkişafı tələbənin dilin strukturunu mənimsəməsi və onu düzgün şəkildə kommunikativ məqsədlərlə istifadə etməsi üçün vacibdir.

Bundan əlavə, dilin öyrənilməsi prosesində *kommunikativ, dil* və *nitq* çalışmalarının roluna da diqqət yetirilməlidir [3, s.40].

1. *Kommunikativ çalışmalar* dilin real vəziyyətlərdə istifadəsinə yönəlir. Bu çalışmalar tələbələrin öyrəndikləri dil biliklərini danışıq, yazı və digər kommunikativ vəziyyətlərdə tətbiq etmələrini təmin edir. Burada əsas məqsəd dilin yalnız nəzəri deyil, praktik tətbiqinin təşviq edilməsidir.

2. *Dil çalışmaları* dilin strukturunun, yəni fonetika, qrammatika və leksikanın dərindən öyrənilməsi və tələbələrin bu strukturları düzgün başa düşməsi və istifadə etməsi üzərində qurulur.

3. *Nitq çalışmaları* isə tələbələrin dil biliklərini real nitq şəraitində tətbiq etmələrini təmin edən çalışmalar olaraq özünü göstərir. Bu mərhələdə tələbələr yalnız dil strukturlarını deyil, həm də nitqin funksional tərəflərini mənimsəyirlər.

Çalışmaların tərtibində dil və nitq arasındakı fərqin nəzərə alınması, tələbələrin həm dilin strukturunu, həm də həmin strukturun kommunikativ məqsədlər üçün necə tətbiq olunduğunu öyrənmələrini təmin edir. Bu yanaşma, tələbələrə dilin hərtərəfli mənimsənilməsi üçün zəmin yaradır və onların kommunikativ bacarıqlarının inkişafını təmin edir [8, s.438].

Qeyd edilmiş çalışmalar tələbələrdə real situasiyalarda ünsiyyət üçün lazım olan prosedural biliyi inkişaf etdirir. Tapşırıqlar həmçinin tələbələrdə intrinsik motivasiya yaradır və müəllimlərin, həmin çalışmalarla tələbələrin ünsiyyətdəki inkişafını görmə imkanı olur.

Qrammatik tapşırıqlar üçün kriteriyalar, ümumilikdə tapşırıqların effektivliyini təmin edən bir sıra mühüm prinsipləri əhatə etməlidir. Bu kriteriyalar aşağıdakı şəkildə müəyyən edilə bilər [4, s.55]:

1. *Əsas fokuslanma məna üzərində olmalıdır:* Qrammatik tapşırıqların əsas məqsədi, tələbələrin yalnız qrammatik qaydaları öyrənmələri deyil, həm də həmin qaydaların kommunikativ məna daşıyan vəziyyətlərdə necə tətbiq edildiyini anlamalarıdır. Beləliklə, tapşırıqların məzmunu, dilin strukturunu anlamaqla yanaşı, onun məna quruluşlarını və funksional istifadə qaydalarını inkişaf etdirməyə yönəlməlidir.

2. *Bir növ boşluq prinsipi tətbiq olunmalıdır:* Qrammatik tapşırıqlar, tələbələrin mövcud qrammatik strukturları və qaydaları mənimsəmələrini təmin etmək üçün müəyyən "boşluqlar" və ya çatışmazlıqlar yaratmalıdır. Bu, tələbənin tapşırığı həlletmə zamanı fəal şəkildə düşünməsini və dilin düzgün strukturunu axtarmasını stimullaşdırır.

3. *Tələbələr müxtəlif mənbələrdən istifadə edə bilərlər*: Tapşırıqların həlli prosesində tələbələr, yalnız dil ilə əlaqəli mənbələrdən deyil, həm də dilçilikdən kənar olan mənbələrdən istifadə edə bilərlər. Bu, tələbələrin daha geniş bir bilik bazasına sahib olmalarını təmin edir və dilin istifadəsində daha çevik və praktik yanaşmaların inkişafına imkan yaradır. Məsələn, tələbələr lüğətlər, kontekstual nümunələr və digər resurslardan istifadə edərək tapşırıqları tamamlamalıdırlar.

Bu kriteriyalar qrammatik tapşırıqların daha məqsədyönlü və effektiv şəkildə həyata keçirilməsini təmin edir, tələbələrin həm nəzəri, həm də praktik bacarıqlarını inkişaf etdirir.

Qrammatik tapşırıqlarda bir neçə xüsusi qrammatik xüsusiyyətin istifadə olunması və başa düşülməsi əsas məqsəd hesab olunur. Bu, tapşırığın düzgün qurulması və uyğun metodiki prosedurların tətbiqi vasitəsilə həyata keçirilir. Burada əsas diqqət, spesifik qrammatik formalarda tapşırığın effektiv şəkildə tətbiqinə yönəlir.

Qrammatik tapşırıqların qurulması Loşiki və Brey Vrumana əsasən aşağıdakı kriteriyalara uyğun olmalıdır [5, s.11]:

1. *Təbiilik* – Tapşırıqların real dil istifadəsini əks etdirməsi, tələbələrə dilin təbii şəkildə tətbiqini təmin etməsi.

2. *Faydalılıq* – Tapşırıqların gündəlik həyat və kommunikasiya baxımından praktiki əhəmiyyət kəsb etməsi.

3. *Vaciblik* – Tapşırıqların tələbənin dil bacarıqlarını inkişaf etdirmək üçün vacib qrammatik strukturları öyrənməsini təmin etməsi.

Bundan əlavə, qrammatik tapşırıqların üç tipi fərqləndirilir:

1. *Input əsaslı* – Bu tip tapşırıqlar öyrənənlərə dilin strukturları və formaları haqqında məlumat təqdim edir və onların bu məlumatları qəbul etməsini təmin edir.

Input – əsaslı tapşırıqlar zamanı tələbələr adətən təsviri və ya nəqli mətnlərə qulaq asırlar (məsələn, xəritələrdəki ərazilərin və istiqamətlərin oxunması). Input tələbələrə hədəf xüsusiyyətləri düzgün şəkildə tətbiq etməyi öyrədəcək şəkildə hazırlanmalıdır. Müəllim inputu tələbələrlə müzakirə etməli və tələbələrə hədəf strukturlardan düzgün istifadə etmələri üçün rəhbərlik etməlidir. Nəticədə, müəllim tələbələrin tamamladığı tapşırıqları yoxlamalıdır.

Bu cür tapşırıqların əsas üstünlüyü onların koqnitiv, təsiredici, effektiv və faydalı olmalarıdır. Tələbələr biliyi dilin hasilatı ilə deyil, inputun işlənməsi yolu ilə əldə edirlər. Tələbələrdən eyni vaxtda həm inputda iştirak etmək, həm də dil hasilatı ilə məşğul olmaq tələb edildikdə, onların qısamüddətli yaddaşında yüklənmə yarana bilər. Qavrama-əsaslı təlimatlar tələbələrdə daha az gərginlik yaradır. Reseptiv və produktiv səriştənin inkişafı arasında müəyyən bir vaxt mövcuddur. Əgər tələbələrdən dil bacarığı tələb olunarsa, o zaman daha çox dilə fokslanmış olacaqlar. Tədqiqatlar göstərir ki, inputun qəbulu və işlənməsi özünü daha effektiv şəkildə qrammatik strukturlarda göstərir.

2. *Hasilat-əsaslı* – Bu tapşırıqlar tələbələrin qrammatik strukturları aktiv şəkildə istifadə etmələrini tələb edir və onların dil bacarıqlarını inkişaf etdirir.

Hasilat-əsaslı tapşırıqlar zamanı tələbələr yazılı, şifahi və ya şəkli formada məlumatla təmin olunurlar. Müəllim tapşırığın tələb olunan nəticəsini izah edir. Tələbələr tapşırıqları ya qrupla birlikdə, ya da kiçik qruplarda məşq edirlər. Əgər hədəf strukturlarda məşq zamanı səhvə yol verilərsə, düzəlişlər edilir. Müəllim tapşırığın nəticəsini yoxlayır.

3. *Şüur inkişaf əsaslı* – Bu tapşırıqlar tələbələrin dilin strukturunu və funksional istifadə qaydalarını daha dərindən anlamalarını və şüurlu şəkildə tətbiq etmələrini təmin edir.

Şüur-yönümlü tapşırıqlarda tələbələrə informasiya verilir və onlar bu məlumatı strukturlarla əlaqələndirirlər. Tələbələr məlumatın əldə edilməsi və ötürülməsi üçün qruplarla işləyirlər. Bu cür tapşırıqlar yalnız dilin strukturunun tam mənimsənilməsinə yönəldilmişdir və aşağı kurs tələbələr üçün uyğun deyil, çünki bu proses vaxt ala bilər.

Tapşırıqların yerinə yetirilməsi zamanı tələbələrin qiymətləndirilməsi və əks-əlaqənin yaradılması onların inkişafına təsir edən əsas faktorlardan biridir. Bununla belə, əks-əlaqə dildaxili hipotezlərin təkrarlanmasına kömək edir; əks-əlaqə olmadan onların boşluqlarını görmək mümkün olmur. Tələbələr özləri əks-əlaqə istəyirlər, lakin bu zaman əks-əlaqə ünsiyyətin axıcılığına təsir etməməlidir.

Qrammatik qaydaların təqdimatı zamanı, onların tətbiqi tələbələr üçün hələ də sual altında ola bilər. Tətbiq isə əsasən tapşırıqlarda özünü doğruldur. Bu zaman müəllimlər tələbələri tanıyaraq, kimlərin cəld və axıcı olduğunu, yalnız səhvləri üzündən məntiqi zəif olanları müəyyən edirlər. Həmçinin elə tələbələr var ki, onların dili demək olar ki, səhvsizdir, lakin onlar üçün hər hansı bir sözün tələffüzü çətinlik yaradır. Ən yaxşı balans isə həm məntiqi əlaqə qurmaq, həm də bildiklərini istifadə edərək real situasiyalarda tətbiq etmək bacarığı ilə əldə olunur. Bunun üçün praktiki tapşırıqlarda dəqiqlik və avtomatiklik ən vacib obyektivlərdən biridir. Bu iki obyektiv isə doğruluq və səlislik adlanır.

Bəzi tələbələr var ki, onlar həm məntiqi, həm də səlis olsalar da, ünsiyyət üçün məhdud söz bazasına malikdirlər. Bu tələbələr, irəliləyiş əldə edəcəkləri halda, kifayət qədər sadə və cəld danışıqda düzgünlük nümayiş etdirə bilməyəcəklər. Həmçinin bildiklərini mürəkkəb formaya salmaq üçün yenidən təşkil etmək və strukturlaşdırmaq qabiliyyətinə malik olmaları vacibdir. Məşq tapşırıqları, tələbələrə cari biliklərini yenidən strukturlaşdırmaq üçün bir imkan yaradır. Bu səbəbdən, yeni biliklər köhnə biliklərlə əlaqələndirilir.

Doğruluq və tamlığa (yəni, tələbələrin dilin bütün strukturlarını dərindən mənimsətmək və praktikada tətbiq etmək bacarığı) nail olmaq üçün ilkin olaraq formaya diqqət yetirmək vacibdir. Diqqət məhdud bir resursdur və ikinci dildə danışmaq yüksək səviyyədə tələb olunan bir bacarıqdır. Tələbələrin diqqət resursu məhduddur, buna görə də onlara eyni anda həm məna, həm də formaya diqqət yetirmək çətinlik yaradır. Bu iki aspekt arasında qaçılmaz bir mübadilə mövcuddur. Beləliklə, tələbələr diqqətlərini məna üzərində cəmləşdirməlidirlər və bu, onlara formaya çox fikir vermədən kömək edəcək. Əgər tələbələr ifadə edəcəkləri məna ilə tanışdırlarsa, bu zaman praktiki tapşırıqların fokuslandığı tamlıq daha effektiv şəkildə həyata keçir. Bununla yanaşı, tələbələrdən yeni qrammatik qaydalarda tamlıq göstərilməsi tələb olunur. Lakin doğruluqla əlaqəli praktiki tapşırıqlar daha sonra, yəni tələbələr yeni materialla tam tanış olduqdan sonra tətbiq edilməlidir [7, s.44].

Doğruluq və tamlıq diqqət tələb edir. Diqqət isə zamanla inkişaf edir. Tədqiqatlar göstərir ki, tələbələr təkrara daha çox vaxt sərf etdikcə, doğruluq səviyyəsi də artır. Bu müddət ərzində onlar biliklərini planlaşdırır, nəzarət edir və tənzimləyirlər. Buna görə də, tələbələrdən birbaşa bütün mövzuların və bacarıqların praktik tətbiqinə yönəldən tapşırıqları yerinə yetirmələrini tələb etmək məhsuldar olmaya bilər. Bu prosesin səmərəli olması üçün tələbələrə daha geniş zaman və resurs verilməsi önəmlidir. Buna görə də, məntiqiliklə bağlı risklər ortaya çıxdıqda, onların açıq əks-əlaqəyə ehtiyacı yaranır. Səhvlərin düzəldilməsi ilə müəllimlər yalnız əks-əlaqə təmin etməklə kifayətlənmir, həmçinin tamlığın əhəmiyyəti barədə tələbələrə mesaj ötürürlər. Onlara nəzarət edilərək, forma üzərində daha çox diqqət yetirilməsi təmin edilir.

Beləliklə, formaya diqqət yetirmək, dil ilə tanışlıq, vaxtın idarə edilməsi, əks-əlaqə və qiymətləndirmə, öyrənmə prosesinin vacib aspektləridir.

Səlislik, hər hansı bir dili sürətli və asanlıqla işlətmək qabiliyyətidir. Tələbələrin bilikləri avtomatlaşmağa başladıqca, səlislik inkişaf edir. Bu, dilin əvvəlcədən yığılmış hissələrindən istifadə etməklə də əldə edilə bilər. Ümumi bölmələrdə toplanan bəzi sözlər və ya ifadələr, *chunk (hissəcik)* olaraq adlandırılır. Məsələn, ümumi ifadələr, *"What is the matter?"* və ya *"Do you know what I mean?"* kimi nümunələr, *chunks* olaraq öyrədilir. *Chunks* həmçinin qrammatik qaydalara əsasən, əvvəlcə cümlələrin yığılması və sonra avtomatlaşdırılması ilə də mənimsənilir. Axıcılıq üçün nəzərdə tutulan tapşırıqlar, əsasən avtomatlaşdırma prosesinə yönəlir. Bu yanaşma, dil bacarıqlarının daha sürətli və təbii şəkildə inkişafını təmin edir.

Formaya həddindən artıq diqqət yetirmək səlisliyi təhlükə altına sala bilər. Səlisliyi inkişaf etdirən tapşırıqlar tələbələrdən daha çox məna üzərində düşünməyi tələb edir. Bu, informasiya boşluqları ilə əlaqəli fəaliyyətlər vasitəsilə mümkündür. Tələbələr real ünsiyyət vəziyyətlərində boşluqlarla körpü yaradaraq həvəsləndirilir. Yəni öyrənənə sual verilir və onun cavab verib-vermədiyi yoxlanılır. Bu halda, dilin hasilatı qrammatik biliyi sadəcə nümayiş etdirməkdən daha çox ünsiyyət məqsədi güdür. Ünsiyyətin əsas məqsədi bir şeyi aşkar etmək, kimdənsə xahiş etmək və ya sual vermək ola bilər. Bu prosesdə bir nəfər danışır, digəri isə dinləyir. Buna görə də, danışan tərəflərin nitqi məntiqli olmalıdır. Digər vacib məqam isə gözlənilməz qarışıqlığın yaranmasıdır; məsələn, sualın cavabı tapılmadıqda, onu axtarmaq və ya cavabsız buraxmaq lazım olub-olmaması məsələsi ortaya çıxır.

Bütün bu qeyd edilənlər – məqsəd, qarşılıqlı əlaqə, qarşılıqlı anlama, gözlənilməzlik – real ünsiyyətin əsas elementləridir. Tələbələrin bu xüsusiyyətlərlə yaratdığı əməkdaşlıq, özünü kommunikativ tapşırıqlarda göstərir.

Beləliklə, səlisliyə nail olmaq üçün praktiki tapşırıqlar aşağıdakı xüsusiyyətlərə malik olmalıdır.

İlk növbədə, əsas diqqət məna üzərində cəmlənməli və tələbələr real dil situasiyalarına əsaslanaraq autentik materiallarla təmin olunmalıdır. Kommunikativ məqsəd tapşırıqların təməlini təşkil etməlidir. Hər bir tapşırıqda interaksiya məqsədi olmalıdır. Hazır ifadələrlə dilin avtomatlaşdırılması təmin edilir və təkrarlarla bu biliklər daha da möhkəmləndirilir. Bu yanaşma, tələbələrin dil bacarıqlarını real və effektiv şəkildə inkişaf etdirməyə kömək edir.

Növbəti məqsəd yenidən strukturlaşdırılmadır ki, bu da köhnə material əsasında həyata keçirilir. Adətən, yenidən strukturlaşdırma təqdimat mərhələsində baş verir. Tələbələr yeni qrammatikanı öyrənir və dərhal onu zehində mövcud olan mental qrammatika ilə əlaqələndirirlər. Tədqiqatlar bu prosesin praktiki fəaliyyətlər ərzində baş verə bildiyini göstərir. Həmçinin, kommunikativ tapşırıqlar da strukturlaşdırma üçün zəngin bir mənbə hesab olunur, çünki bu fəaliyyət növləri öyrənməni mürəkkəbləşdirir. Məsələn, tərəflər sualı başa düşmədikdə və ya cavabı anlamadıqda nə baş verir? Belə hallarda, ünsiyyət tələbəni bildiklərini təhlil etməyə və yenidən düşünməyə məcbur edir. Nəticədə, ötürülən mesajın tam anlaşılması üçün qrup halında işləmək lazım gəlir. Kommunikativ yanaşmanın tərəfdarları, dilin mənimsənilməsi prosesinin baş verməsi üçün bu cür fəaliyyətlərin çox vacib olduğunu hesab edirlər.

Beləliklə, yenidən strukturlaşdırma zamanı praktiki tapşırıqlar aşağıdakı xüsusiyyətlərə malik olmalıdır [8, s.439]:

1. *Problemləşdirmək:* Hər hansı bir problemin yaranması strukturlaşdırma prosesini işə salır. Bu, tələbələrə real ünsiyyət vəziyyətlərində qarşılaşdıqları problemləri həll etməyə imkan yaradır. Məsələn, tələbələrə müəyyən bir situasiya verilir, burada ötürülən mesajın mənası yanlış anlaşıldıqda, bu zaman onların istifadə etdiyi qrammatik qaydalar yenidən qiymətləndirilir. Bu cür problemlər tələbələri öz biliklərini təhlil etməyə və yeni yanaşmalar tətbiq etməyə təşviq edir.

2. *Təkan* fəaliyyət növü tələbəni dil bacarıqlarını həyata keçirməyə, tətbiq etməyə təkan verməlidir. Xüsusilə, bu o zaman baş verir ki, tələbələr əvvəlki təcrübələrinə əsaslanaraq, normalda istifadə etdikləri və ya başa düşdükləri dilin çətin versiyasını başa düşmək və istifadə etmək məcburiyyətində qalırlar. Bu proses onların dil bacarıqlarını inkişaf etdirir və daha mürəkkəb strukturların istifadəsinə kömək edir.

3. *Scaffolding (Möhkəmləndirmə):* Scaffolding tələbələrin yeni məlumatlarla tanış olmaları və əvvəlki bilikləri ilə yeni bilikləri əlaqələndirmələri üçün dəstəkləyici bir mühit yaratmaq məqsədini güdür. Bu proses, tələbələrin riskə getməyə və öz biliklərini tətbiq etməyə təşviq edən bir növ dəstək təmin edir. Praktiki tapşırıqların icrası zamanı tələbələr yeni bilikləri əvvəlki biliklərlə əlaqələndirərək balans yaratmağa çalışırlar. Məsələn, tanış bir hekayənin müxtəlif baxış bucaqlarından danışılması buna misal ola bilər. Bu zaman müəllimlər tələbələrə interaksiya yaratmaq, təkrar etmək, və parafraza etmək kimi dəstək formaları ilə kömək edirlər. Scaffolding tələbələrin daha mürəkkəb dil strukturlarını özlərinə qəbul etdirmələrini və onları tətbiq etmələrini asanlaşdırır.

Bu xüsusiyyətlər praktiki tapşırıqların effektivliyini artırır və tələbələrin dil bacarıqlarının həm nəzəri, həm də tətbiqi cəhətdən inkişaf etməsinə kömək edir.

***Mövzunun aktuallığı.*** Qrammatika dilin hərtərəfli və effektiv şəkildə istifadəsi üçün əsas struktur təşkil edir. Aşağı kurslarda qrammatik bacarıqların düzgün inkişaf etdirilməsi, tələbələrin öz fikirlərini aydın şəkildə ifadə etməsi, yazılı və şifahi ünsiyyət qabiliyyətlərini gücləndirir. Bu mövzu, dil tədrisində düzgün qrammatik biliklərin təməlini qoymağın və bu bilikləri effektiv şəkildə inkişaf etdirilməsinin vacibliyini vurğulayan aktuallığa malikdir.

***Mövzunun elmi yeniliyi*** dil öyrənmə prosesində tələbələrin qrammatik bilikləri daha səmərəli və davamlı şəkildə mənimsəməsi üçün yeni metodların və yanaşmaların tətbiq edilməsidir. Bu yanaşmalar, dilin tədrisində ənənəvi metodlardan fərqli olaraq, daha interaktiv və fərdi öyrənmə üsullarına əsaslanır, beləliklə tələbələrin motivasiyasını artırır və qrammatik bacarıqların daha effektiv inkişafını təmin edir.

***Mövzunun praktik əhəmiyyəti və tətbiqi*** – dil bacarıqlarının inkişafı və tələbələrin kommunikativ səriştələrinin artırılması ilə əlaqədardır. Bu yanaşma, tələbələrə yalnız nəzəri bilikləri deyil, real həyatda tətbiq etmək bacarığını da qazandırır. Tədris metodlarının effektivliyi, tələbələrin həm şifahi, həm də yazılı ünsiyyət bacarıqlarını inkişaf etdirir.

**Ədəbiyyat**

1. Türksevər, O. (Musayev). İngilis dilinin qrammatikası / O.Türksevər. – Bakı: Qiymət, – 2007. – 576 s.
2. Гальскова, Н.Д. Современная методика обучения иностранным языкам / Н.Д.Гальскова. – М.: Аркти-Глосса, – 2006. – 165 с.
3. Искрин, С.А. Моделирование ситуаций общения в процессе обучения иностранному языку // ИЯШ, – 2004/2. – с. 40-45.
4. Тимофеева, Т.И. Система упражнений для формирования грамматиес-кой компетенции студентов: ситуативной контекст: уч.пособие / Т.И.Тимофеева. – Ульяновск: Ул.ГТУ, – 2012. – с. 1-69.
5. Щерба, Л.В. Преподавание иностранных языков в средней школе / Л.В.Щерба. – М.: Высшая школа, – 1981. – 211 с.
6. Larsen-Freeman, D. Techniques and Principles in Language Teaching, 2nd ed., / D.Larsen-Freeman. – Oxford: Oxford University Press, – 2000. – 189 p.
7. Harmer, J. The Practice of English Language Teaching. 4th ed., / J.Harmer. Pearson Education Limited, – 2007. – 448 p.
8. Thornbury, S. How to teach grammar / S.Thornbury, H.Jeremy. – Edinburgh: Pearson Education Limited, – 1999.
9. Widdowson, H.G. Teaching English as Communication. 5th ed., / H.G.Widdowson. – Oxford: Oxford University Press, – 2008. – 229 p.
10. Wisma, Y. Best practice in teaching English grammar to university students: deductive, inductive, or combination of both. ISELT. – 2016. – p. 438-440.

**G.S.Hasanova**

**Ways of Developing Grammatical Skills in Junior Courses**

***Summary***

Teaching grammar plays an important role in the language learning process, as understanding the structure, rules, and usage of the language is crucial for the development of students' language skills. The teaching of grammar is not only about teaching the structure of the language but also aims to ensure that students use these structures correctly and effectively.

The aim of the article is to investigate various methods and approaches for the effective development of grammatical skills in students enrolled in junior courses. With this purpose the article presents a study the mastery of the structural rules of the language, the proper and appropriate application of grammar teaching methods, as well as the presentation of educational strategies aimed at reducing grammatical errors and enhancing students' grammatical skills.

***Keywords:*** *grammar skills, receptive and productive skills, grammatical principles, language and speech studies, grammatical criteria*

**Г.С.Гасанова**

**Методы формирования грамматических навыков на младших курсах**

***Резюме***

Преподавание грамматики играет важную роль в процессе изучения языка, поскольку понимание структуры, правил и использования языка является важным для развития языковых навыков учащихся. Преподавание грамматики заключается не только в обучении структуре языка, но и в обеспечении того, чтобы учащиеся правильно и эффективно использовали эти структуры.

Цель статьи – исследовать различные методы и подходы для эффективного развития грамматических навыков у студентов, обучающихся на младших курсах. С этой целью статья представляет собой изучение усвоения структурных правил языка, правильного и соответствующего применения методов грамматического обучения, а также представление педагогических стратегий, направленных на снижение грамматических ошибок и повышение грамматических навыков студентов.

***Ключевые слова:*** *грамматические навыки, рецептивные и продуктивные навыки, грамматические принципы, языковые и речевые упражнения, грамматические критерии*

*Rəyçi: ped.f.d. F.Şükürova*

*Redaksiyaya daxil olub: 19.05.2025*